Analysis and evaluation the role of independent regulatory body in providing a competitive environment in the ICT sector

Gulnara Fataliyeva
Research fellow, Institute of Economics of ANAS. Azerbaijan.
E-mail: feteliyevagulya@gmail.com
https://orcid.org/0000-0001-8918-6160

Abstract. The article discusses the issues of ICT sector regulation in Azerbaijan and its neighboring countries, comparatively analyzes the current situation in this field, reveals the existing shortcomings and shows ways of their solution. The results of the study show that, in the countries where the ICT sector is regulated by the Independent Regulatory Body, the competitive environment in the sector is more effective. Based on the assessments, it was determined that the correlation between the Regulatory Sub-Index and the Competition Sub-Index is positive and the dependence is higher than average (r = 0.6969). However, it should also be noted that while the existence of an Independent Regulatory Body in the field of ICT is important for competition in the sector, it is not absolute. The necessity of creating an Independent Regulatory Body to improve the competitive environment in our country has been substantiated. With the creation and effective operation of such a regulator, the country's position in the ICT sector regulation rating will be increased.
Keywords: ICT sector, regulation, ministry, independent regulatory body, operator, competition.

http://dx.doi.org/10.29228/edu.325
JEL L86, L50; **UDC** 338.46:334.02
To cite this article: Fataliyeva G. (2021). Analysis and evaluation the role of independent regulatory body in providing a competitive environment in the ICT sector. *Economic Growth and Social Welfare,* Issue I, pp. 45-55.
Article history: Received – 03.01.2021; Accepted – 16.03.2021.

İKT sektorunda rəqabət mühitinin təmin edilməsində müstəqil tənzimləyici qurumun rolunun təhlili və qiymətləndirilməsi

Gülnarə Fətəliyeva
Elmi işçi, AMEA İqtisadiyyat İnstitutu, Azərbaycan.
E-mail: feteliyevagulya@gmail.com
https://orcid.org/0000-0001-8918-6160

Annotasiya. Məqalədə Azərbaycan və ona qonşu dövlətlərdə İKT sektorunun tənzimlənməsinin institusional strukturu ilə bağlı məsələlər araşdırılmış, bu sahədə müasir vəziyyət müqayisəli olaraq təhlil edilmiş, mövcud olan çatışmazlıqlar üzə çıxarılmış və onların həlli yolları göstərilmişdir. Tədqiqatın nəticələri göstərir ki, İKT sektoru Müstəqil Tənzimləyici Qurum tərəfindən tənzimlənən ölkələrdə bu sahədə rəqabət mühiti daha səmərəli olur. Aparılmış qiymətləndirmələr əsasında Tənzimləyici Qurum alt-indeksi ilə Rəqabət alt-indeksi arasında korrelyasiya əlaqəsinin müsbət və asılılığın isə orta dərəcədən yüksək (r = 0,6969) olduğu müəyyən edilmişdir. Lakin qeyd etmək lazımdır ki, İKT sahəsində Müstəqil Tənzimləyici Qurumun mövcudluğu sektorda rəqabətin hökm sürməsi üçün mühüm əhəmiyyət kəsb etsə də, mütləq xarakter daşımır. Ölkəmizdə də rəqabət mühitinin yaxşılaşdırılması məqsədilə Müstəqil Tənzimləyici Qurumun yaradılmasının zəruriliyi əsaslandırılmışdır. Belə növ tənzimləyicinin yaradılması və səmərəli fəaliyyəti ilə İKT sektorunun tənzimlənməsinin qiymətləndirilməsi reytinqində ölkəmizin mövqeyinin yüksəlməsinə imkan yarana bilər.

Açar sözlər: İKT sektoru, tənzimləmə, nazirlik, Müstəqil Tənzimləyici Qurum, operator, rəqabət.

http://dx.doi.org/10.29228/edu.325
JEL L86, L50; **UDC** 338.46:334.02
Məqaləyə istinad: Fətəliyeva G. (2021). İKT sektorunda rəqabət mühitinin təmin edilməsində müstəqil tənzimləyici qurumun rolunun təhlili və qiymətləndirilməsi. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 45-55.
Məqalə tarixçəsi: göndərilib – 03.01.2021; qəbul edilib – 16.03.2021

Giriş / *Introduction*

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunda çox sayda şirkətlər, operator və provayderlər fəaliyyət göstərməkdədir. Müxtəlif və bir-biri ilə rəqabət aparan xidmət təminatçılarının problemsiz və əlaqəli şəkildə fəaliyyət göstərməsini və onlardan heç birinin rəqabəti azaltmaq və ya müştəriləri istismar etmək məqsədilə bazar gücündən istifadə etməməsini təmin etmək üçün tənzimləmə tələb olunur. İKT sektorunun səmərəli tənzimlənməsi bu sahənin hərtərəfli inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanda ona qonşu dövlətlərlə müqayisəli olaraq İKT sahəsinin tənzimlənməsi məsələlərinin araşdırılması, bu sahədə mövcud olan çatışmazlıqların üzə çıxarılması və həlli yollarının göstərilməsi aktuallıq kəsb edir.

Həmçinin İKT sektorunda Müstəqil Tənzimləyici Qurumun fəaliyyətinin rəqabət mühitinə təsirinin qiymətləndirilməsi də məqalənin əsas məqsədlərindəndir.

Əsas hissə / *Main Part*

Ədəbiyyatların təhlili

İKT sektorunun tənzimlənməsi, tənzimləyici qurumun fəaliyyətinin sektorun inkişafına təsiri və s. ilə bağlı məsələlər həm beynəlxalq təşkilatların, həm də ayrı-ayrı tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Məsələn, Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) hesabatında yer alan təsnifata əsasən, İKT sektorunun tənzimlənməsinin başlıca məqsədlərinə bazar uğursuzluqlarının qarşısının alınması, istehlakçı maraqlarının qorunmasının təmin edilməsi, inhisarçı meyllərin, anti-rəqabət hallarının aradan qaldırılması, səmərəli rəqabət mühitinin yaradılması və qorunub saxlanılması üzrə tədbirlərin həyata keçirilməsi və s. daxildir (ITU, 2011, s.10). Bu funksiyaların lazımi qaydada reallaşdırılması sektorun inkişafı və istehlakçıların rifah halının yaxşılaşdırılması üçün əlverişli mühit yaratmaq baxımından əsas element kimi çıxış edir.

Cari hesabatda həmçinin qeyd edilir ki, beynəlxalq təcrübədə effektiv tənzimləyici çərçivənin tətbiqi sektorda daha yüksək iqtisadi artım, aşağı qiymətlər, daha yaxşı xidmət keyfiyyəti, artan investisiyalar, daha yüksək nüfuzetmə səviyyəsi və sürətli texnoloji yeniliklərlə nəticələnmişdir (ITU, 2011, s.11).

Wallsten (2001) tərəfindən ekonometrik modelin köməyindən istifadə edilməklə 1984-1997-ci illərdə Afrika və Latın Amerikasında İKT sahəsində islahatların təsirlərinin qiymətləndirilməsi aparılmışdır. Tədqiqatın nəticələri ayrı İKT tənzimləyicilərinin sektorun iqtisadi göstəricilərinin artımında əhəmiyyətli rol oynadığını göstərmişdir.

Gutierrez (2003) tənzimləyici indeks və panel məlumatları üsullarından istifadə edərək, tənzimləyici idarəetmənin sektorun fəaliyyətinə necə təsir etdiyini tədqiq etmişdir. Latın Amerikasının 22 ölkəsini əhatə edən araşdırma daha yaxşı tənzimləmə bazasının İKT sektorunun fəaliyyətinə müsbət təsir göstərdiyini tapmışdır.

Waverman və digərləri (2006, s.34) dövlət mülkiyyətinin və müstəqil tənzimləyici orqanın Avropa Birliyi ölkələrində telekomunikasiya tənzimləməsinin nəticələrinə təsirini təyin etməyə çalışmışlar. Nəticələrə əsasən, şirkətin dövlət mülkiyyətində olmasının mövcud qarşılıqlı əlaqə dərəcələrinə müsbət təsir etdiyi, lakin bu təsirin tənzimləyici orqanın müstəqilliyinin artması nəticəsində azaldığı müəyyən edilmişdir.

Katz (2020, s.19-20) 2007-2018-ci illər üzrə 139 ölkənin panel məlumatlarına istinad edərək institusional və tənzimləyici çərçivənin rəqəmsal ekosistemin inkişafına necə təsir etdiyini araşdırmışdır. Müəllif İKT sahəsində tənzimləyici və institusional yetkinliyin rəqəmsallaşmanın böyüməsini stimullaşdırdığını təsbit etmişdir. Belə ki, İKT sekorunda siyasət və tənzimləmələrdə dəyişikliklər sektora dövlət investisiyalarının artmasına gətirib çıxarır ki, bu da şəbəkənin etibarlılığını, bağlantı və əlçatanlığı artırır. Araşdırmanın nəticələri, həmçinin institusional dəyişikliklərin özəl sektorun (operatorlar, xidmət təminatçıları və digər bazar oyunçularının) investisiya və ticarət fəaliyyətlərini artırdığını aşkar etmişdir.

Metodologiya

Məqalədə tədqiqat üsulu kimi müqayisəli və statistik təhlil, sistemli yanaşma, korrelyasiya analizi metodlarından istifadə edilmişdir. Tədqiqat işində təhlillər zamanı İKT sektorunun tənzimlənməsi məsələlərinə dair beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Telekommunikasiya İttifaqının hesabatlarından və statistik məlumatlarından, yerli və xarici rəsmi və etibarlı informasiya mənbələrindən istifadə olunmuş, xarici iqtisadi ədəbiyyatlara istinad edilmişdir.

Nəticələr

Azərbaycan və qonşu ölkələrdə İKT sektorunun tənzimlənməsi xüsusiyyətləri

Yeni texnologiyaların təkamülü, İKT xidmətləri üzrə beynəlxalq ticarətin artması və

miqyasının genişlənməsi İKT sektorunun milli iqtisadiyyatlar üçün əhəmiyyətini artırmışdır. Bu, öz növbəsində, son onilliklərdə inhisar quruluşlarından rəqabət quruluşlarına keçidin inkişafına təkan vermişdir. Belə sürətlə tərəqqi edən bir sahədə tənzimlənmənin yeniliklərə uyğunlaşmasını təmin etmək lazımdır. Dünya ölkələri sektorun zamanın tələblərinə uyğun olaraq inkişafı məqsədilə yeni qanunlar qəbul edir, mövcud tənzimləyici çərçivələrini nəzərdən keçirir və yeni tənzimləyici orqanlar yaradırlar. Ümumiyyətlə, İKT sektorunun tənzimlənməsi ilə nazirlik, ümumi və ya xüsusi tənzimləyici orqan və ya xüsusi agentliklər məşğul olur. Hazırda əksər dövlətlərdə İKT sektorunda tətbiq olunan institusional quruluş belədir: tənzimləyici çərçivənin həyata keçirilməsi və idarə olunması üçün məsuliyyət daşıyan müstəqil tənzimləyici orqan yaradılır və sektorda siyasətin yürüdülməsi məsələləri üzrə məsuliyyət isə həmin sahə üzrə fəaliyyət göstərən nazirliyin üzərinə düşür. Ölkəmizə qonşu olan dövlətlər içərisində Müstəqil Tənzimləyici Quruma (MTQ) sahib olanlar vardır. 2000-ci illərin əvvəllərindən Gürcüstan, Türkiyə, İran və Ermənistanda belə növ orqan fəaliyyətə başlamışdır. Ölkəmizdə İKT sektorunda tənzimləmə məsələləri 2017-ci ilin fevral ayında Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əsasında yaradılan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) tərəfindən həyata keçirilir (ARPS, 2017). Rusiyada isə bu sahənin tənzimlənməsi ilə 3 dövlət orqanı məşğul olur (Cədvəl 1).

Cədvəl 1. İKT sektorunun tənzimləyici institusional strukturu

Ölkələr	Sektorda siyasəytin yürüdülməsi (Nazirlik)	Sektorun tənzimlənməsi	MTQ-nin yarandığı il
Azərbaycan	Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	---	---
Rusiya	Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyi (Minkomsvyaz); Kommunikasiya, informasiya texnologiyaları və kütləvi kommunikasiyalar sahəsində Federal Nəzarət Xidməti (Roskomnadzor); Federal Rabitə Agentliyi (Rossvyaz)	---	---
Gürcüstan	İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi	Milli Rabitə Komissiyası	2000
İran	İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi	Rabitənin Tənzimləmə Orqanı	2003
Türkiyə	Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi	İnformasiya və Kommunikasiya Texnologiyaları İdarəsi	2000
Ermənistan	Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi	Dövlət Xidmətləri üzrə Tənzimləmə Komissiyası	2006

Mənbə: MISR, 2017; CCG, 2021; CRAI, 2021; OZRFT, 2021 əsasında müəllif tərəfindən tərtib edilib.

BTİ tərəfindən dünyanın 160-a yaxın ölkəsində aparılan araşdırma nəticəsində tənzimləyici qurumların səlahiyyətinə daxil olan funksiyalar aşağıdakı kimi müəyyən edilmişdir: qiymət tənzimlənməsi, lisenziyalaşdırma, yayım ötürülməsi, universal giriş /xidmət, kiber təhlükəsizlik, internet, spektr monitorinqi və icrası, bağlantı səviyyəsi və sürəti və s. (ITU, 2011).

MTQ-lər bir və ya bir neçə sahənin tənzimlənməsinə cavabdeh ola bilir. Məsələn, Ermənistanda Dövlət Xidmətləri üzrə Tənzimləmə Komissiyası İKT sektoru ilə yanaşı, həm də elektrik enerjisi, təbii qaz, su, dəmir yolu nəqliyyat sektorunun da tənzimlənməsi ilə məşğul olur. Gürcüstan, İran və Türkiyədə isə tənzimləyici qurumlar yalnız İKT sektoru üzrə fəaliyyət göstərir.

Maliyyələşdirmə mexanizmi tənzimləyici qurumun funksiyasının effektivliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Dünya təcrübəsində tənzimləyici üçün müvafiq büdcənin maliyyələşdirilməsinin iki əsas yolu vardır: dövlət büdcəsindən ayırmalar və tənzimləyicilər tərəfindən operatorlardan lisenziya haqları, öhdəliklərin icrası nəticəsində yaranan cərimələr və s. üçün ödənişləri qəbul etməklə fondun yaradılması. Bəzi ölkələrdə tənzimləyici qurumlar üçün maliyyələşdirmə, ümumiyyətlə hər iki mənbənin birləşməsindən əldə edilir. 2 saylı cədvəldə ölkəmizə qonşu dövlətlərin MTQ-lərinin icra etdiyi funksiyalar və maliyyələşmə mənbələri haqda məlumatlar əks olunmuşdur.

Cədvəl 2. Müstəqil Tənzimləyici Qurumun funksiyaları və maliyyə mənbələri

Ölkə	Müstəqil Tənzimləyici Qurum	Funksiyaları	Maliyyə mənbələri
Gürcüstan	Rabitə Komissiyası	lisenziyalaşdırma, radio tezliklər spektrinin istifadəsi üçün icazənin verilməsi, Komissiya qaydalarına tabe olan şirkətlər və eləcə də onlarla istehlakçılar arasında mübahisələrin həlli, bazarın müxtəlif seqmentlərinin öyrənilməsi və təhlili, əhəmiyyətli bazar gücünə malik olan müəssisələrin müəyyən edilməsi və onlara xüsusi öhdəliklərin verilməsi, telekommunikasiya şəbəkələrinə və infrastrukturlara girişin tənzimlənməsi, standartlaşdırma, sertifikatlaşdırma və metrologiya xidməti sisteminin tətbiqinin təşviqi, sektorda tətbiq olunan qanunun tələblərinə riayət olunmasına nəzarət və s.	tənzimləmə haqları
İran	Rabitənin Tənzimləmə Orqanı	lisenziyaların verilməsi, qiymət tənzimlənməsi, radio tezliklərin bölüşdürülməsi, xidmətlərin keyfiyyətinə nəzarət və s.	lisenziya haqqı (41%), dövlət vəsaiti (10%), tənzimləmə haqları (3%), digər mənbələr (46%)
Türkiyə	İnformasiya və Kommunikasiya Texnologiyaları İdarəsi	texniki və xidmət standartlarının qəbulu, radio tezliyin ayrılması və təyin edilməsi, xidmət öhdəlikləri keyfiyyətinin icrasına nəzarət, qoşulmaların (bağlantı) sürəti, qiymətlərin tənzimlənməsi və s.	cəzalar, cərimələr, tənzimləmə ilə bağlı haqlar
Ermənistan	Dövlət Xidmətləri üzrə Tənzimləmə Komissiyası	tarif siyasəti, lisenziyaların verilməsi, radio tezliklərin bölünməsi, xidmət keyfiyyəti üzrə standartların qəbulu, xidmətlərin keyfiyyətinə nəzarət və s.	tənzimləmə ilə bağlı ödənişlər

Mənbə: MISR, 2017; CCG, 2021; CRAI, 2021 əsasında müəllif tərəfindən tərtib edilib.

3 saylı cədvəldə BTİ tərəfindən illik olaraq hazırlanan və İKT sektorunda tənzimləməni qiymətləndirən ICT Regulatory Tracker adlı reytinqin məlumatları əsasında respublikamız və qonşu dövlətlərin göstəriciləri verilmişdir. Qeyd edək ki, 50 göstərici əsasında 4 qrupda birləşən bu reytinq İKT tənzimləmə mühitində baş verən dəyişiklikləri və tərəqqini izləməyə və tənzimləmə çərçivəsindəki boşluqları müəyyən etməyə imkan verir.

Cədvəlin məlumatlarından göründüyü kimi, əsasən ayrı tənzimləyici qurumun fəaliyyətinə diqqət yetirən "Tənzimləyici orqan" adlı ilk qrup üzrə aşağı bal toplayan ölkələr Azərbaycan və Rusiyadır ki, bu ölkələrin də hər ikisində İKT sektoru nazirlik tərəfindən tənzimlənir, daha doğrusu, bu dövlətlərdə hələ ki MTQ yaradılmayıb. Qeyd edilən iki ölkə sektorun tərkibinə daxil olan alt sahələr üzrə müxtəlif funksiyaların hansı qurum tərəfindən icra edilməsini ölçən "Tənzimləyici mandat" adlı ikinci qrup ballarına görə də sıralamada geri qalır. Əsas sahələrdə hansı növ tənzimləmənin mövcudluğunu müəyyən edən "Tənzimləyici rejim" üzrə də eyni vəziyyət müşahidə edilir. İlk 3 qrup üzrə aşağı ballar ölkəmizin ümumi reytinq sıralanmasında 6 ölkə arasında 5-ci yerdə qərarlaşması ilə nəticələnmişdir. Səbəbi isə ölkəmizdə hələ də MTQ-nin olmaması ilə izah etmək olar.

Cədvəl 3. İKT sektorunun tənzimlənməsinin qiymətləndirilməsi reytinqi 2018

Ölkələr	Tənzimləyici orqan (0-20 bal)	Tənzimləyici mandat (0-22 bal)	Tənzimləyici rejim (0-30 bal)	Rəqabət (0-28 bal)	Yekun bal (maks.100)
Azərbaycan	8	13,5	24	25	**70,50**
Rusiya	4	11	13	14	**42,00**
Gürcüstan	18	16,5	30	28	**92,50**
İran	19	19	28	16	**82,00**
Türkiyə	19	19,5	30	26	**94,50**
Ermənistan	19	19,5	20	27	**85,50**

Mənbə: ITU, 2018 əsasında müəllif tərəfindən tərtib edilib.

İKT sektorunda inkişafı müəyyən edən əsas amillərdən biri rəqabətdir. MTQ-nin əsas funksiyalarından biri bazarda səmərəli rəqabət mühitinin təmin edilməsidir. Cədvəl 3-ə əsasən qeyd etmək olar ki, Tənzimləyici orqan qrupu üzrə mümkün 20 baldan Türkiyə - 19, Ermənistan - 19 və Gürcüstan - 18 bal, həmçinin Rəqabət göstəricisi üzrə mümkün 28 baldan müvafiq olaraq 26; 27 və 28 bal toplamışlar. Adı çəkilən ölkələr İKT sektorunda həm MTQ-yə, həm də əlverişli rəqabət mühitinə malikdirlər. Bu baxımdan İran istisna təşkil edir. Belə ki, adı çəkilən dövlətdə MTQ fəaliyyət göstərsə də, Rəqabət qrupunda aşağı mövqeyə sahibdir. Bunun səbəbini isə MTQ-nin maliyyələşmə mənbəyi ilə izah etmək olar. Qonşu ölkələr içərisində yalnız İranda tənzimləyici orqanın maliyyə mənbələrindən biri kimi dövlət vəsaiti (10%) çıxış edir (cədvəl 2). Məhz bu amil ölkədə İKT sahəsində, xüsusilə də onun rabitə (o cümlədən mobil rabitə və internet) alt-sektorlarında dövlətin böyük təsirə malik olmasına gətirib çıxarır. Nəticədə isə sektorda rəqabət mühiti zəifləmiş olur. Müqayisəli olaraq anti-rəqabət hallarının üstünlük təşkil etdiyi digər ölkə Rusiyadır. Bu dövlət həm Tənzimləyici orqan (4 bal), həm də Rəqabət (14 bal) göstəricisi üzrə digər 5 ölkədən geridədir (cədvəl 3).

Təcrübə göstərir ki, dövlətin böyük nüfuza sahib olduğu və ya dövlət qurumu tərəfindən tənzimlənən sektorlarda çox zaman dövlət müəssisələri bazarda dominant mövqeləri ilə seçilirlər. Məsələn, Rusiyada dövlət müəssisəsi olan Rostelecom sabit genişzolaqlı bazarda abunəçilərin 35 faizindən çoxuna sahibdir. İranda tarixi telekommunikasiya operatoru olan qismən özəlləşdirilmiş İran Telekommunikasiya Şirkəti sabit telefon xidmətlərini təmin edən yeganə şirkətdir və o sabit genişzolaqlı bazarda liderdir. İraq Telekommunikasiya və Poçt Şirkəti ölkədəki vahid sabit telefon operatorudur. Şirkət sabit telekomunikasiya sektorunun inkişafına və sərmayə yatırımına çox az maraq göstərir ki, bu da bazarda inhisarın hökm sürməsinə gətirib çıxarır (MISR, 2017, s.82; 83).

Azərbaycanda sabit şəbəkə telefon xidmətləri sahəsində "Aztelekom" MMC və "Bakı Telefon Rabitəsi" MMC, ən böyük sabit genişzolaqlı şəbəkə provayderləri olan Aztelekomnet və Baktelecom MMC, poçt sektorunda "Azərpoçt" MMC kimi dövlət operatorları bazarın əksər hissəsini əllərində cəmləşdirə bilmişlər. Liberal və rəqabətli İKT bazarına sahib olan Gürcüstanda isə, əksinə olaraq, sabit genişzolaqlı internet xidmətləri göstərən 150-yə yaxın şirkət vardır (MISR, 2017, s.67).

Tənzimləyici Qurumun səmərəli fəaliyyət göstərə bilməsinin əsas amillərdən biri qurumun maliyyə və struktur baxımından müstəqilliyinin təmin edilməsidir. Təcrübə də göstərir ki, tənzimləyici qurumun struktur və maliyyə müstəqilliyi ilə təmin edilməsi onun siyasi baxımdan ələ alınma ehtimalını azaldır. Yəni, tənzimləyici orqan operatorlar və ya digər hökumət qurumları tərəfindən nə qədər xarici təzyiqlərə az məruz qalırsa, müstəqilliyini saxlaya bilir və qəbul etdiyi qərarlar da obyektiv və şəffaf olur.


Müstəqil Tənzimləyici Qurumun rəqabət mühitinə təsirinin qiymətləndirilməsi

1 saylı qrafikə əsasən demək olar ki, Tənzimləyici Qurum alt-indeksi ilə Rəqabət alt-indeksi arasında müsbət korrelyasiya əlaqəsi vardır və bu asılılıq orta dərəcədən yüksəkdir (r=0,6969). Təhlillər göstərir ki, İKT sektoru MTQ tərəfindən tənzimlənən dövlətlərdə qeyd edilən sektorda daha səmərəli rəqabət mühiti olur. Bir sıra inkişaf etmiş dövlətlər, o cümlədən ABŞ, Birləşmiş Krallıq, Avstraliya, Avstriya, Belçika, Danimarka, Finlandiya, Norveç, Fransa, Yunanıstan, İslandiya, İrlandiya, İsveçrə, İsveçdə adı çəkilən sektorun tənzimlənməsi məsələləri ilə MTQ məşğul olur. Bu ölkələr Tənzimləyici Qurum alt-indeksi üzrə 18-dən (mümkün bal 0-20 arasıdır), Rəqabət alt-indeksində isə 25-dən (mümkün bal 0-28 arasıdır) yüksək bal toplamışlar. Eləcə də inkişaf etməkdə olan və zəif inkişaf etmiş bir qisim dövlətlər də bu ölkələr ilə eyni mövqeyə sahibdir (məsələn, Meksika, Malta, Xorvatiya, Moldova, Latviya, Litva, Macarıstan, Rumıniya, Türkiyə, Gürcüstan, Pakistan, Panama, Peru, Venesuela, Seneqal, Ekvador və s.).

İKT sahəsinin tənzimlənməsinə nazirliyin cavabdeh olduğu Kuba, Özbəkistan, Tacikistan, Efiopiya, Eritreyada rəqabət mühiti aşağı balla qiymətləndirilmişdir. Bu dövlətlərin Rəqabət alt-indeksində balı 7-ni keçməmişdir. Rəqabət alt-indeksində sıfır bal toplayan Andorra xüsusilə diqqəti çəkir. Dünyanın ən kiçik dövlətlərindən biri olan bu ölkənin rəqabət mühitinin bal ala bilməməsinin səbəblərindən biri sektorda inhisarçılğın hökm sürməsidir. Belə ki, 100 faiz dövlətə məxsus olan Andorra Telecom operatoru telekommunikasiya bazarında inhisarçı mövqeyə malikdir. Operatorun rəhbəri həm də sektorda tənzimləyici rəhbər kimi çıxış edir və birbaşa Andorra İKT siyasətini həyata keçirir (MISR, 2017, s.6).

Yalnız dövlət ayırmalarından deyil, bir çox maliyyə mənbələrindən maliyyələşmə, yuxarıda qeyd edildiyi kimi, tənzimləyici qurumların maliyyə baxımından daha çox müstəqil olmasına, eləcə də xarici təsirlərə daha az məruz qalmasına imkan verir. Nazirliklə yanaşı, sektorun tənzimlənməsi siyasətini həyata keçirmək məqsədilə ayrıca tənzimləyici qurumu olan Bəhreyn, Botsvana, Braziliya, Nigeriya, Tanzaniya və Uqanda kimi ölkələrdə tənzimləyicilərə öz vəsaitlərini idarə etmək səlahiyyəti ilə birlikdə maliyyə müstəqilliyi verilmişdir (ITU, 2011, s.16). Bu ölkələr İKT sahəsində rəqabət üzrə də kifayət qədər yaxşı mövqeləri ilə fərqlənirlər. İTU-nun hesabatlarında (MISR, 2017; MISR, 2018) adı çəkilən dövlətlər inkişaf etmiş İKT bazarına və tənzimləmə bazasına malik ölkələr kimi qeyd edilmişdir.

Lakin qeyd etmək lazımdır ki, İKT sahəsində MTQ-nin mövcudluğu bu sferada rəqabətin hökm sürməsi üçün mühüm əhəmiyyət kəsb etsə də, mütləq xarakter daşımır. Belə ki, qrafikə nəzər salsaq görərik ki, elə dövlətlər vardır ki, onların İKT sektoru MTQ deyil, nazirlik tərəfindən tənzimlənir. Məsələn, İKT liderlərindən olan Yaponiyada sektorda nəzarətin həyata keçirilməsi və tənzimlənmə Daxili İşlər və Rabitə Nazirliyinin vəzifəsidir. İKT siyasəti Avropa Birliyindəki ən yaxşı təcrübələrə əsaslanan İsraildə isə Rabitə Nazirliyi sektorda siyasətin müəyyənləşdirilməsində və qaydaların tətbiq edilməsində iştirak edir. İnkişaf etmiş bu ölkələr İKT sənayesinin tərəqqisi, bu sahədə məhsulların istehsalı və xidməti üzrə, eləcə də son texnologiyaların inkişafı, sınaqdan keçirilməsi və mənimsənilməsi baxımından dünya sıralanmasında qabaqcıl yerləri tuturlar.



Şəkil 1. Tənzimləyici Qurum alt-indeksi ilə Rəqabət alt-indeksi arasında bağlılıq
Mənbə: ITU, 2018 əsasında müəllif tərəfindən tərtib edilib.

Dünyanın ən böyük İKT bazarına sahib olan və İKT məhsullarının aparıcı ixracatçısı Çində də ayrıca tənzimləyici orqan yaradılmamışdır. Sektorun siyasət və tənzimlənməsinə görə Sənaye və İnformasiya Texnologiyaları Nazirliyi məsuliyyət daşıyır. Qeyd edilən ölkələr və onların aparıcı şirkətləri İKT sferasında nəinki daxili bazarda, eləcə də beynəlxalq səviyyədə rəqabətədavamlıdırlar (MISR, 2018, s.38; 83; 86) (Qrafik 1).

Bəzi dövlətlərdə isə MTQ-nin fəaliyyət göstərməsinə baxmayaraq, rəqabət sahəsinin zəif olmasını həmin ölkələrdəki siyasi və iqtisadi vəziyyətlə əlaqələndirmək olar. Həmçinin MTQ ilə yanaşı, nazirliyin də sektorda tənzimləmə işlərinə müdaxilə etməsi və bəzi şirkətlərə təsiri rəqabət mühitini zəiflədir. Nümunə olaraq, İraq, Esvatini və Beliz üzərində dayanaq. Bu ölkələr Rəqabət alt-indeksində müvafiq olaraq 3; 7,3 və 7,3 bal toplamışlar. İraqdakı media və telekommunikasiya sektorunu müasir beynəlxalq meyarlar altında tənzimləməyi və inkişaf etdirməyi hədəfləyən Rabitə və Media Komissiyası ilə yanaşı, Rabitə Nazirliyinin iki böyük dövlət şirkətini idarə etməsi sektorda anti-rəqabət hallarına yol açır. Ölkənin İKT sektorundakı artım hal-hazırda böhrandan da təsirlənir ki, bütün bunlar da rəqabətin çox zəif olmasına səbəb olur (MISR, 2017, s.83). Dünyanın ən yoxsul ölkələrindən biri olan Esvatini mütləq monarxiya ilə idarə olunur. Belə növ idarəetmənin olduğu dövlətlərdə isə rəqabət hallarına demək olar ki, rast gəlinmir. Bundan əlavə, ölkədə həm mobil rabitə, həm də sabit telefon və sabit genişzolaqlı internet bazarında yalnız bir şirkət fəaliyyət göstərir (MISR, 2018, s.58). XX əsrin sonlarına yaxın müstəqillik əldə edən, zəif inkişaf etmiş və idarətmə üsulu konstitusiyalı monarxiya olan Belizdə BTL şirkəti 15 il ərzində həm mobil, həm də sabit xidmətlər sahəsində inhisar mövqeyində olmuşdur. Liberallaşdırma tədbirlərinin aparılmasına baxmayaraq, hazırda mobil rabitə sahəsinin iki, sabit telefon sahəsinin isə bir dominant operatorun əlində cəmləşməsi hər iki alt-sektorda nüfuzetmə səviyyəsinin regional və qlobal səviyyələrin altında olması ilə nəticələnmişdir (MISR, 2018, s.20).

Yüksək həyat səviyyəsinə malik Küveytdə MTQ - Rabitə və İnformasiya Texnologiyaları Tənzimləmə Orqanı bir neçə il əvvəl fəaliyyətə başlasa da, hələ də sabit telefon xidmətləri dövlətə

məxsus inhisar olaraq qalmaqdadır. 2016-cı ilə qədər sektoru tənzimləyən Rabitə Nazirliyi sabit xətt şəbəkəsini idarə edir. Bu da ölkənin rəqabət üzrə az çəki (12 bal) toplaması ilə nəticələnmişdir (MISR, 2018, s.94).

Müzakirə

Bir məsələni xüsusi qeyd etmək lazımdır ki, ölkə prezidentinin 7 avqust 2020-ci il tarixli fərmanına əsasən Azərbaycan İnvestisiya Holdinqi yaradılmış və bir sıra dövlət şirkətlərinin idarəetməsi qurumun öhdəliyinə verilmişdir. Publik hüquqi şəxs kimi fəaliyyət göstərən holdinqin başlıca məqsədi bu müəssisələrin fəaliyyətinin təkmilləşdirilməsi, vahid prinsiplərə uyğun idarə olunması, onların rəqabət qabiliyyətinin təmin edilməsi, maliyyə dayanıqlılığının yaxşılaşdırılmasıdır. 2020-ci il 5 noyabr tarixindən bir sıra dövlət şirkətləri, eləcə də "Aztelekom" MMC, "Bakı Telefon Rabitəsi" MMC və "Azərpoçt" MMC operatorları Holdinqin idarəetməsinə daxil edilmişdir (AİH, 2021).

Lakin İKT sektorunda inhisarçı mövqeyi ilə seçilən dövlət şirkətləri ilə yanaşı, çoxsaylı özəl müəssisələrin də olduğunu nəzərə alsaq, bazarda bütün oyunçulara qarşı ayrı-seçkiliksiz yanaşmanın təmin edilməsi baxımından MTQ-nin yaradılması xüsusi əhəmiyyət daşıyır. Adətən, operatorlar bazarda üstünlüklərə malik olurlar və bundan rəqabətin məhdudlaşdırılması üçün ədalətsiz şəkildə istifadə edə bilirlər. İKT bazarı liberallaşdıqca və daha rəqabətli olduqca, operatorlar arasında, eləcə də istifadəçilər və operatorlar arasında mübahisələr artır. Belə bir şəraitdə adekvat tənzimləmə tədbirləri vasitəsilə operatorlara qeyri-rəqabətli davranışla məşğul olmaq və ya öz hakim mövqelərindən sui-istifadə etmələrinə icazə verməmək, həmçinin mübahisələri effektiv şəkildə həll etmək və onlarla bağlı qərar vermək üçün prosedurların müəyyən edilməsi səlahiyyətinə malik olan MTQ-nin fəaliyyətinə ehtiyac duyulur. Qurumun qəbul etdiyi qərarlar və prosedurlar bütün bazar iştirakçılarına münasibətdə qərəzsiz, şəffaf, obyektiv olmalıdır.

Nəticə / *Conclusion*

Tədqiqatın yekunu olaraq aşağıdakı nəticələr əldə edilmiş və təkliflər irəli sürülmüşdür:

1. Qiymətləndirmələrə əsasən, İKT sektorunun bu sahədə fəaliyyət göstərən nazirliklə müqayisədə Müstəqil Tənzimləyici Qurum tərəfindən tənzimlənməsinin rəqabət mühitinə müsbət təsir göstərdiyi qənaətinə gəlmək olar.
2. Aparılan araşdırmalardan göründüyü kimi, Azərbaycanda iki nazirliyin əsasında yaradılan NRYTN sektorda həm dövlət siyasətini və həm də tənzimləməni həyata keçirir. Bu amil isə dövlətimizin BTİ tərəfindən hazırlanan İKT sektorunun tənzimləməsi reytinqində aşağı nəticə göstərməsinə səbəb olmuşdur. Təhlillərin nəticəsi respublikamızda Müstəqil Tənzimləyici Qurumun yaradılmasının zəruriliyini göstərir.

- Belə bir şəraitdə ölkəmizdə siyasi və özəl maraqların təsirindən azad olması baxımından yerinə yetirəcəyi fəaliyyətlərə görə dövlət büdcəsindən deyil, ödənilən haqlardan maliyyələşdirilən və yalnız İKT sektorunda tənzimləyici funksiyaları icra edəcək Müstəqil Tənzimləyici Qurumun yaradılması məqsədəuyğun olardı. Fikrimizcə, belə bir qurum qeyri-bərabər rəqabətdən yaranan hər hansı bir bərabərsizliyin azaldılmasına yönəlmiş qaydaları yaratmaq və tətbiq etməklə İKT sahəsinin səmərəli tənzimlənməsini təmin etmiş olar. Bununla da, Tənzimləyici Qurum alt-indeksində olmaqla ümumilikdə İKT sektorunun tənzimlənməsinin qiymətləndirilməsi reytinqində ölkəmizin mövqeyinin yüksəlməsinə nail olmaq olar.
- Həmçinin sağlam və azad rəqabət mühitinin yaxşılaşdırılması məqsədilə İKT sektorunun əsas seqmentini təşkil edən rabitə sahəsində liberallaşdırma tədbirlərinin aparılması, bazarda dominantlıq edən dövlət müəssisələrinin qismən və ya tam özəlləşdirilməsi tədbirlərinin sürətləndirilməsi də vacib məsələlər kimi qarşıda durur.
- Qonşu dövlətlərin təcrübəsinə əsaslanaraq ölkəmiz üçün Gürcüstanın tənzimləmə siyasətini nümunə kimi götürmək olar. Belə ki, bu respublikada nazirlik və tənzimləyici orqan arasında aydın şəkildə bölüşdürülmüş vəzifə və öhdəliklər İKT sektorunun səmərəli tənzimlənməsini təmin

edir. Gürcüstan hökuməti İKT bazarının liberallaşdırılması və açıq və rəqabətqabiliyyətli olmasına nail olmuşdur ki, bu da iqtisadiyyata müsbət təsir göstərir.

Qeyd edilən tədbirlərin həyata keçirilməsi isə, öz növbəsində, İKT sektorunun uzunmüddətli inkişafının təmin edilməsi ilə nəticələnər.

İstifadə edilmiş ədəbiyyat / *References*

AİH (2021). Azərbaycan İnvestisiya Holdinqi. https://az.wikipedia.org/wiki/ Azərbaycan_ İnvestisiya_Holdinqi. İstinad tarixi: yanvar, 2021.

ARPS (2017). "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 13 fevral 2017-ci il. https://president.az/articles/22762. İstinad tarixi: yanvar, 2021.

CCG (2021). Communications Commission of Georgia. https://www.comcom.ge/en. İstinad tarixi: yanvar, 2021.

CRAI 2021. Communications Regulatory Authority of I.R. of Iran https://www.cra.ir. İstinad tarixi: yanvar, 2021.

Gutierrez L. (2003). The Effect of Endogenous Regulation on Telecommunications Expansion and Efficiency in Latin America. Journal of Regulatory Economics 23:3 257-286. İstinad tarixi: yanvar, 2021.

ITU (2011). Telecommunications regulation handbook. ITU, The IBRD/The World Bank, InfoDev. 2011. 254 p. https://www.itu.int/dms_pub/itu-d/opb/pref/D-PREF-TRH.1-2011-PDF-E.pdf. İstinad tarixi: yanvar, 2021.

ITU (2018). ICT Regulatory Tracker 2018. https://www.itu.int/net4/itu-d/irt/#/tracker-by-country/regulatory-tracker/2018. İstinad tarixi: yanvar, 2021.

ITU (2021). The impact of policies, regulation, and institutions on ICT sector performance. 2021. 80 p. http://www.teleadvs.com/wp-content/uploads/The-impact-of-policies.pdf. İstinad tarixi: yanvar, 2021.

Katz, R. and Callorda, F. (2020). How broadband, digitization and ICT regulation impact the global economy. Global econometric modelling 2020. 52 p. ITU. https://www.itu.int/dms_pub/itu-d/opb/pref/D-PREF-EF.BDR-2020-PDF-E.pdf. İstinad tarixi: yanvar, 2021.

MISR (2017). Measuring the Information Society Report 2017. Volume 2. ICT country profiles. 252 p. ITU. https://www.itu.int/en/ITU-D/Statistics/Documents/publications/ misr2017/ MISR2017_Volume2.pdf. İstinad tarixi: yanvar, 2021.

MISR (2018). Measuring the Information Society Report 2018. Volume 2. ICT country profiles. 234 p. ITU. https://www.itu.int/en/ITU-D/Statistics/Documents/ publications/misr2018/ MISR-2018-Vol-2-E.pdf. İstinad tarixi: yanvar, 2021.

OZRFT (2021). Obzor zakonodatel'stva Rossiyskoy Federatsii v sfere telekommunikatsiy: Chast' 2 - IKT-regulyatory Rossii. https://digital.report/ict-zakonodatelstvo-rossii-regulyatory. İstinad tarixi: yanvar, 2021.

Wallsten S. (2001). An Econometric Analysis of Telecom Competition Privatization and Regulation in Africa and Latin America, The Journal of Industrial Economics, XLIX, March 2001. İstinad tarixi: yanvar, 2021.

Анализ и оценка роли независимого регулирующего органа в обеспечении конкурентной среды в секторе ИКТ

Гюльнара Фаталиева
Научный сотрудник, Институт Экономики НАНА. Азербайджан.
E-mail: feteliyevagulya@gmail.com

Резюме. В статье исследуются вопросы регулирования сектора ИКТ в Азербайджане и соседних с ним странах, сравнительно анализируется текущая ситуация в этой области, выявляются существующие недостатки и показываются пути их решения. Результаты исследования показывают, что в странах, где сектор ИКТ регулируется Независимым Регулирующим Органом, конкурентная среда в этом секторе является более эффективной. На основании оценок было определено, что корреляция между суб-индексом Регулирующего органа и суб-индексом Конкуренции положительная и зависимость выше среднего (r = 0,6969). Однако следует также отметить, что, хотя существование Независимого Регулирующего Органа в области ИКТ важно для конкуренции в этом секторе, оно не является абсолютным. Обоснована необходимость создания Независимого Регулирующего Органа для улучшения конкурентной среды в нашей стране. С созданием и эффективной работой такого регулятора позиция страны в рейтинге регулирования сектора ИКТ будет повышена.
Ключевые слова: сектор ИКТ, регулирование, министерство, независимый регулирующий орган, оператор, конкуренция.